№ 278 ISSN 1027-3875 30 noyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Yəmən HAŞIMOVA
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



Тамилла Алиева 8
ЛИРИКА МАТЕМАТИКА



Qənirə Paşayeva *12*
DÜNYANIN İTİRDİYİ BÖYÜK ADAM



ОБАМА: ОТСУТСТВИЕ ЦЕНЗУРЫ ИНТЕРНЕТА СПОСОБСТВУЕТ УКРЕПЛЕНИЮ ОБЩЕСТВА 18



НИЛУФЕР
24 «БЕССМЕРТНАЯ»



Aydın CANIYEV
ALİM QASIMOV: "MƏN ONUNLA DÜŞMƏN KİMİ OXUYURAM"
30



33



34

"AZƏRBAYCAN TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATLARI İTTİFAQI" İCTİMAİ BİRLİYİNİN TƏSİS QURULTAYI

Noyabrın 20-də Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzində "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin təsis qurultayı keçirilmişdir. Qurultayı giriş nitqi ilə açan "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin yaradılması üzrə təşkilat komitəsinin sədri Şahin İsmayılov bildirmişdir ki, məqsədimiz ölkəmizdə təhsil alan gənclərin vahid bir qurumda birləşməsini rəsmiləşdirməkdir. 2005-ci ildən etibarən respublikanın bütün ali təhsil müəssisələrində tələbə gənclər təşkilatları yaradılmışdır. Ötən müddət ərzində bu təşkilatların işində müəyyən uğurlar müşahidə edilmiş, tələbələrin bu qurumlar ətrafında birləşməsinə qismən nail olunmuşdur. Bu gün tələbə gənclərlə sistemli şəkildə iş aparmaq, onların mənafelərini qorumaq və respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakını təmin etmək vəzifəsi qarşıda durur ki, "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyi də bu məqsədə xidmət edəcək.

Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsis qurultayına ünvanladığı təbrik məktubunu oxumuşdur.

Azərbaycan Milli Aviasiya Akademiyasının tələbə gənclər təşkilatının sədri Zafiq Xəlilov, Bakı Avrasiya Universitetinin tələbə gənclər təşkilatının sədri Qabil Quliyev, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin tələbə gənclər təşkilatının sədri Səadət İmanova və Azərbaycan Dillər Universitetinin IV kurs tələbəsi Aygün Allahverdiyevanın çıxışları maraqla dinlənilmişdir.

Qurultayda Milli Məclisin deputatı, Gənclər Təşkilatları Milli Şurasının sədri Fuad Muradov, YAP Gənclər Birliyinin sədri Ramil Həsənov, "İrəli" İctimai Birliyinin sədri Ceyhun Osmanlı, Gənclər üçün Təhsil Mərkəzinin sədri Vüsal Quliyev, Bakı Slavyan Universitetinin rektoru Kamal Abdullayev çıxış etmişlər.

Tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev geniş nitq söyləmişdir.

Dövlətimizin gənclərə göstərdiyi qayğıdan danışan natiq bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin əsas məqsədi, qayğısı yüksək intellektə malik olan, geniş dünyagörüşlü və innovasiyalara maraq göstərən gəncliyin formalaşdırılmasıdır. Məhz bu məqsədlə Azərbaycanın dövlət büdcəsinin xərclərində təhsilin inkişafına hər il daha böyük vəsait ayrılır.

Gənclərin təhsili ilə bağlı problemləri diqqətə çatdıran Prezident Administrasiyasının rəhbəri demişdir: "Siz həyatınız boyu təhsil almağı, daim öz mənəvi dünyanızı yeni elmi biliklərlə zənginləşdirməyi qarşıya məqsəd qoyduğunuz zaman ahəngdar şəxsiyyət kimi formalaşa bilər, ölkəniz və mənsub olduğunuz cəmiyyət üçün faydalı vətəndaşa çevrilə bilərsiniz.

Bu gün bəzi təhsil ocaqlarımızda tədrisin keyfiyyətinin aşağı olmasının sonrakı mərhələdə gənclərin peşəkarlığının və yaradıcı qabiliyyətinin zəifləməsinə gətirəcəyini söyləyən akademik Ramiz Mehdiyev demişdir ki, ali təhsil məktəbləri gələcək fəaliyyət istiqamətlərini elə qurmalıdırlar ki, onlar təhsil və peşəkar fəaliyyət arasında ixtisaslı kadrlar yetişdirən mühüm vasitəyə çevrilsinlər. Bunun üçün ilk növbədə tədrisin keyfiyyəti artırılmalı, ixtisaslaşmış gənc məzunların peşəkar mühitə inteqrasiyası təmin edilməlidir. Sözsüz ki, təhsilin modernləşdirilməsi ölkəmizin ən aktual problemlərindən biri olaraq qalır. Lakin bu modernləşmə formal xarakter daşımamalıdır və burada çox məsələlər siz təhsil alanlardan da asılıdır.

Prezident Administrasiyasının rəhbəri demişdir ki, biz artıq azad insanların azad cəmiyyətini qururuq. Belə bir cəmiyyətdə intellektual, xarici dil bilən, Azərbaycanı beynəlxalq arenada təmsil etməyə qadir, ölkəmizin rəqabətə davamlılığını artıra biləcək insanlar lazımdır. Ona görə də bu gün hər bir gənc öz məsuliyyətini dərk etməli və vətənpərvərlik nümayiş etdirməlidir. Bu anlayışlar fərqli olsa da, yaradıcı və intellektual gəncliyin formalaşması baxımından bir-birini şərtləndirir. Bu işdə tələbə gənclər təşkilatlarının rolu çox böyükdür. Bu təşkilatlar 2005-ci ildən etibarən formalaşmağa başlayıb və ali məktəblərdə tələbələr arasında nüfuzu ilə seçilirlər.

Tələbə gənclər təşkilatlarının qarşısında duran əsas vəzifələri şərh edən natiq bildirmişdir ki, bu gün Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının yaradılması ilə tələbə gənclər təşkilatlarının inkişafında yeni bir mərhələ başlayır. Bu yeni qurum müxtəlif təşkilatlar arasında əlaqələndirici rolunu oynamaqla, ümumi məqsədlərə nail olmaq üçün səylərin və imkanların birləşdirilməsini təmin edəcəkdir.

Qurultayda "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin təsis edilməsi barədə qərar qəbul edilmişdir.

Birliyin nizamnaməsi təsdiq edildikdən sonra təşkilatın əlaqələndirmə şurasına üzv seçilmiş 59 tələbənin adı açıqlanmış və nəzarət-təftiş komssiyasının 7 nəfərdən ibarət olması qəbul edilmişdir. Birliyin 19 nəfərdən ibarət idarə heyəti seçilmişdir.

Namizədliyi irəli sürülmüş Şahin İsmayılov "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin sədri seçilmişdir.

Sonda qurultayın nümayəndələri adından Azərbaycan Prezidenti İlham Əliyevə və ölkə gənclərinə müraciət qəbul edilmişdir.

UNİVERSİTƏ XƏBƏRLƏRİ

TƏLƏBƏLƏRİMİZ ÖLKƏ MİQYASLI TƏŞKİLATDA

"Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin təsis qurultayında Xəzər Universitəsini 4 nümayəndə - Pərviz Muradov (universitə Tələbə Məclisinin prezidenti, İqtisadiyyat və menecment fakültəsinin 4-cü kurs tələbəsi), Ruslan Cəfərov (Tələbə Məclisinin vitse-prezidenti, Humanitar və sosial elmlər fakültəsinin 3-cü kurs tələbəsi), Cavid Əliyev (Tələbə Məclisininin ikinci vitse-prezidenti, İqtisadiyyat və menecment fakültəsinin II kurs tələbəsi) və Aysel Kazımova (Tələbə Məclisinin layihələr departamentinin sədri, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin III kurs tələbəsi) təmsil etmişlər.

Pərviz Muradov və Ruslan Cəfərov "Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı" İctimai Birliyinin Əlaqələndirmə Şurasına üzv seçilmişlər. Pərviz Muradov, eyni zamanda, birliyin İdarə heyətinin üzvü və sədrin müavini seçilmişdir. Tələbələrimizi bu münasibətlə təbrik edir, ölkə miqyaslı tələbə təçkilatındakı fəaliyyətlərində onlara uğurlar arzulayırıq.

MİLLİ KİTAB MÜKAFATINA AİD TƏDBİR

Noyabrın 17-də Azərbaycan Dövlət Dillər Universitetində Milli Kitab Mükafatı layihəsi ilə bağlı tədbir keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycan ədəbiyyatına ictimai diqqət cəlb etmək, müasir ədəbiyyatın sosial önəmini artırmaq və yeni əsərlərin dərcidir. Tədbirdə Milli Kitab Mükafatı Münsiflər heyətinin üzvlərindən Hamlet İsaxanlı, Rəşad Məcid, Nərgiz Cəlilova və mükafatın təsisçisi, "Əli və Nino" Nəşriyyat Evinin rəhbəri Nigar Köçərli iştirak etmişlər.

"AZƏRBAYCAN GƏNCLİYİ VƏ TARİXİMİZ" MÖVZUSUNDA KONFRANS



Noyabrın 18-də "Demokratik Cəmiyyətin İnkişafına Yardım" İctimai Birliyi və Xəzər Universitəsinin təşkilatçılığı ilə universitədə "Azərbaycan gəncliyi və tariximiz" mövzusunda konfrans keçirildi.

Konfransı universitənin prorektoru Rafiq Əhmədov açaraq, giriş sözü söylədi. "Demokratik Cəmiyyətin İnkişafına Yardım" İctimai Birliyinin vitse-prezidenti, idarə heyətinin sədri Tural Məmmədov, Cəmiyyətin ali təhsil müəssisələri üzrə koordinatoru Elton Zeynalov, Cəmiyyətin İdarə Heyəti sədrinin müavini Vüsalə Bəkirova, Cəmiyyətin Xəzər Universitəsi üzrə özək sədri Cavid Cəfərov, Xəzər Universitəsi Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Dilbər Zeynalova çıxış edərək, tələbə gənclər tərəfindən Azərbaycan tarixinin dərindən öyrənilməsi zərurətindən danışdılar, bu sahədəki qüsurlar və onların aradan qaldırılması yolları haqqında öz fikir və mülahizələrini bildirdilər. Qeyd etdilər ki, qloballaşma meyillərinin gücləndiyi, sivilizasiyaların və mədəniyyətlərin yarışdığı müasir dövrdə, informasiya cəmiyyətinə keçid şəraitində gənclərimizdən milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi, mədəniyyətimizi və ana dilimizi qorumaq, daha da inkişaf etdirmək, həmçinin ümumbəşəri ideyaları mənimsəyərək dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya proseslərinə töhfələr vermək tələb olunur.

Konfrans mövzuya aid tövsiyələrin qəbul edilməsi ilə başa çatdı.



MOSKVA DÖVLƏT UNİVERSİTETİNDƏ KONFRANS

Noyabrın 19-20-də Lomonosov adına Moskva Dövlət Universitetində Avrasiya Universitet reytinq konfransı keçirildi. QS World University Rankings təşkilatının və MDU-nin təşkilatçılığı ilə keşirilən bu konfransda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da yaxından iştirak etdi.

"AZƏRBAYCANDA HUMANİTAR VƏ SOSİAL ELMLƏRİN VƏZİYYƏTİ" MÖVZUSUNDA GÖRÜŞ

Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Azərbaycanda humanitar və sosial elmlərin vəziyyəti" mövzusunda görüş keçirildi. Prezident administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin bu mövzuda geniş məruzəsi dinlənildi. Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da iştirak etdi.

XƏZƏR UNİVERSİTƏSİ XƏZƏR TELEVİZİYASINDA

Noyabrın 22-də Xəzər televiziyasının "Təhsilə dair" verilişində Xəzər Universitəsi müəllim və tələbələrinin iştirakı ilə Azərbaycan ali təhsilinin inkişafında özəl ali təhsil müəssisələrinin yeri, rolu, uğurları və problemləri müzakirə olunmuşdur. Verilişin ekspertləri qismində Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı və Azərbaycan Respublikası Təhsil Nazirliyi aparatının rəhbəri İlham Pirməmmədov çıxış etmişlər.Telemüzakirə tələbələrin fəallığı şəraitində keçmiş, ekspertlər onların və aparıcının suallarını cavablandırmaqla məsələnin bir çox cəhətlərinə aydınlıq gətirmiş, problemlərdən və onların aradan qaldırılması yollarından bəhs etmişlər.

İRAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN SƏDR MÜAVİNİ İLƏ GÖRÜŞ

Noyabrın 24-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədr müavini Ağayi Eyyub Xoşsiyəri qəbul etdi. Xəzər Universitəsi İranşünaslıq mərkəzinin əməkdaşı Nahid Səfiyevin də iştirak etdiyi bu görüşdə Mədəniyyət Mərkəzi ilə Xəzər Universitəsi arasındakı elmi-mədəni əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri müzakirə olundu.

JÜRİ ÜZVLƏRİNİN YAZIÇILARLA GÖRÜŞÜ

Noyabrın 25-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Milli kitab mükafatı" haqqında jüri üzvlərinin yazıçılarla görüşü oldu. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı da jüri üzvü kimi geniş çıxış etdi, yaradıcı fəaliyyətə himayənin müxtəlif tarixi dövrlərdə müxtəlif formalarda olduğunu təhlil etdi və mükafatın əhəmiyyəti haqqında danışdı.

TƏLƏBƏ MƏCLİSİ: DAHA BİR XANIM PREZİDENT VARMIŞ...

Jurnalımızın ötən nömrəsində "Tələbə Məclisi: sabiq və hazırkı prezidentlərin məktublaşması" sərlövhəli yazı dərc etmişdik. Tələbə Məclisinin hazırkı prezidenti Pərviz Muradov sabiq prezident Şəfəq Mehrəliyevaya məktubunda onu "yeganə xanım prezident" adlandırmış, o isə buna təəssüfünü bildirmişdi. Amma,demə, daha bir xanım prezident varmış...

Salam,Pərviz!

Sənin Şəfəq Mehrəliyeva ilə yazışmanı "Xəzər Xəbər"də oxudum. Qərara aldım ki, gec də olsa, Xəzər Universitəsi Tələbə Məclisinin 2-ci Xanım prezidentini sənə təqdim edim: Şəlalə İmanova (2001-2002-ci illər). Onun haqqında qısa məlumatı sənə göndərirəm.

Ümumiyyətlə, Tələbə Məclisinin qərargahında bir qovluq açılsa və hər prezident və onun "komandası" haqqında məlumatlar toplanılıb saxlanılsa, çox yaxşı olar. Hətta, hər bir prezident vəzifəsindən gedəndə bu qovluğa təkliflərini, edə bildikləri və bilmədikləri haqqında məlumatı daxil edib onu təhvil verməlidir ki, gələnlərin də bir-birindən xəbəri olsun. Birinin başa çatdıra bilmədiyini başqası təkmilləşdirsin, bir-birlərinin düz və səhv işlərindən öyrənsinlər. Yəni bu, sadəcə, ağlıma gələn bir fikirdir. Onu inkişaf etdirmək olar.

Ümid edirəm ki, sən tez bir zamanda Tələbə Məclisinin tarixini araşdırıb bu qovluqları tərtib edəcəksən və beləliklə də informasiya çatışmazlığını aradan qaldıracaqsan.

Bu məsələyə "Əməliyyatların idarə edilməsi" fənnindən həll edəcəyin problemlərdən biri kimi yanaş! Son müddət: Yekun imtahanı! Uğurlar!

Hörmətlə,
Xumar HÜSEYNOVA,
Xəzər Universitəsinin Ph.D tələbəsi

İKİNCİ XANIM PREZİDENT: *ŞƏLALƏ İMANOVA*



Şəlalə İslam qızı İmanova 1981-ci ildə anadan olmuşdur. Orta təhsilini "Zəngi" liseyində bitirmişdir. 2002-ci ildə Xəzər Universitəsinin Humanitar və sosial elmlər fakültəsini ingilis dili və ədəbiyyatı ixtisası üzrə fəxri diplomla bitirmişdir. Hazırda Niderland Krallığında İnholland Biznes məktəbində beynəlxalq biznes və menecment ixtisası üzrə ikinci bakalavr təhsilini bitirmək üzrədir.

2000-2001-ci illərdə Xəzər Universitəsi Tələbə Məclisinin vitse-prezidenti, 2001-2002-ci illərdə prezidenti olmuşdur.

AMEA Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında böyük laborant vəzifəsində çalışmışdır.

2002-ci ildə UNDP ilə NICTS Layihəsində İnzibati işlər üzrə köməkçi, 2002-2003-cü illərdə Birləşmiş Millətlər Təşkilatı Kosmosun tətbiqi üzrə "Space Generation Advisory Consul" Proqramının Azərbaycan Milli Koordinatoru olmuşdur.

Almaniyada keçirilən "Space Generation" konqresində, UNESCO Türk dövlətlərinin "Space Generation" Forumunda iştirakına, Qərb Universitetinin 10 illiyinə həsr olunmuş VIII ənənəvi tələbə elmi konfransında işti-rakına və III yer tutduğuna görə sertifikatlar almışdır.

Hazırda Xəzər Universitəsində birinci prorektorun assistenti vəzifəsində çalışır.

XƏZƏR UNİVERSİTƏSİ MƏZUNLARININ DÖVLƏT QULLUĞUNA QƏBUL ÜZRƏ MÜSABİQƏLƏRDƏ İŞTİRAKI

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2007-ci ildən başlayaraq, vətəndaşların dövlət qulluğuna qəbulu ilə bağlı 6 müsabiqə keçirmişdir. Müsabiqələrdə 10634 nəfər iştirak etmiş, onların 526 nəfəri vəzifəyə təyin olunmuşdur. Fəaliyyətində aşkarlıq, şəffaflıq və bərabərlik prinsiplərinə riayət edən Komissiya çox dəyərli təhlil apararaq, müsabiqələrdə iştirak edənlərin ölkədəki ali məktəblər üzrə nəticələrini müəyyən etmiş və onları hər bir ali təhsil müəssisəsinə göndərmişdir. Xəzər Universitəsinə aid nəticələri dərc edirik.

XƏZƏR UNİVERSİTƏSİ MƏZUNLARININ GÖSTƏRİCİLƏRİ

Aşağıdakı cədvəldən göründüyü kimi, altı müsabiqədə namizəd kimi iştirak edən 28 Xəzər Universitəsi məzununun 28.57%-i (8 namizəd) test mərhələsini uğurla keçmişdir. Bunların da 87.5%-ni 20-29 yaş arasında olan namizədlər təşkil etmişdir.

Yaş bölgüsü	Namizədlərin sayı			Test qalibi			Vəzifəyə uyğun			Vəzifəyə təyin olunan		
	Cəmi	Kişi	Qadın	Cəmi	Kişi	Qadın	Cəmi	Kişi	Qadın	Cəmi	Kişi	Qadın
20-29 yaş arası	27	23	4	7	6	1	1	-	1	1	-	1
30-39 yaş arası	1	-	1	1	-	1	1	-	1	1	-	1
Cəmi:	28	23	5	8	6	2	2	-	2	2	-	2

20-29 yaş arası olan 27 namizəddən test imtahanı mərhələsində 1-i qadın olmaqla 7-si uğur qazanmışdır. Müsahibə mərhələsində uğur əldə edən 1 qadın namizəd vakant vəzifəyə təyin edilmişdir.

30-39 yaş arası olan 1 qadın namizəd həm test imtahanı, həm də müsahibə mərhələsində uğur qazanaraq, vakant vəzifəyə təyin edilmişdir.

XƏZƏR UNİVERSİTƏSİ ÜZRƏ ÜMUMİ GÖSTƏRİCİLƏR

Altı müsabiqədə iştirak edən 10634 namizədin 0.26%-i (28 namizəd) Xəzər Universitəsinin məzunları olmuşdur. Onların da 17.86%-i qadın namizədlərdir. Test mərhələsini 2-si qadın olmaqla 8 namizəd uğurla adlamışdır. Bu, Xəzər Universiteti üzrə iştirakçı namizədlərin 28.57%-ni təşkil edir. Test imtahanı mərhələsində uğur əldə edənlərin 25.00%-i müsahibə mərhələsində vakant dövlət qulluğu vəzifəsinə uyğun hesab edilmişdir. Vakant dövlət qulluğu vəzifəsinə uyğun bilinən 2 qadın namizədin 2-si də vəzifəyə təyin olunmuşdur.

ИССЛЕДОВАНИЕ

ЛИРИКА МАТЕМАТИКА



Такмилла Алиева
Доцент кафедры Теории литературы Бакинского Славянского Университета

Мир многолик, и чтобы познать его нужно быть и ученым, и поэтом одновременно. Один из видных математиков XX века говорил, что те, у кого фантазии маловато для математики, становятся литераторами. В этих, сказанных в шутку словах, содержится определенная доля истины. Без творческого воображения невозможно добиться успеха ни в одной отрасли наук, особенно в деле преодоления посредством цифр и математических действий невообразимо гигантских расстояний и проникновения в тайны невидимых миров. Но провести четкую грань между математикой и литературой тоже невозможно. И в той, и в другой области необходимо творческое воображение, и не случайно, в ранние периоды мировой науки, особенно на Востоке не было существующей в наше время четкой грани между точными и гуманитарными науками, а также художественным творчеством. Обратившись к истории, увидим, что определить место Авиценны, Омара Хайяма, исходя из сферы их интересов, весьма не просто. Авиценна величайший врач, математик, или же крупный философ и поэт? Омар Хайям хотя и был одним из крупнейших астрономов и математиков своего времени, нашим современникам больше известен как поэт - мастер рубаи.

Сказка «Алиса в стране чудес» хорошо известна читателям, но мало кто знает, что ее автор Луис Керрол - это крупнейший математик своего времени Чарльз Лютвидж Джонсон. Один из лучших представителей русской поэзии серебряного века Андрей Белый на физико-математическом факультете Московского университета был известен как преподаватель Борис Бугаев.

Широта взглядов и глубина проникновения в природу вещей характерны для каждой работы выдающегося математика, доктора физико-математических наук, профессора Андрея Николаевича Колмогорова. Кроме математики он занимался стиховедением, первым применил математические методы и программирование к стихам.

Интересно, что среди математиков много писателей, людей занимавшихся не только строгой наукой, но и творчеством. Это, наверное, связано с тем, что ни один из них не считал свои успехи в науке единственной целью в жизни, каждый из этих учёных стремился познать окружающий мир во всей его красоте и многообразии. Так же, как и математики, писатели и поэты стремятся найти истину, постичь красоту мира, понять его устройство – в этом им успешно помогает наука, прежде всего – математика. Чтобы познать мир нужно быть и учёным, и поэтом, и философом.

Все это говорит о том, что обращение математиков к художественному творчеству не такое уж редкое явление. И не удивительно, что это имеет место и в наши дни. Одним из таких математиков, обратившихся к художественному творчеству, в настоящее время является Гамлет Исаханлы, доктор наук, профессор, хорошо известный в мире азербайджанский математик, который серьезно занялся литературным творчеством и уже издал несколько поэтических сборников, стихи которого переведены на несколько иностранных языков: русский, китайский, английский, грузинский, эстонский, турецкий, что само по себе является свидетельством поэтической значимости его произведений.

Его математический талант не измерить обычными мерками, не разложить на составля-

ющие, даже пользуясь его собственной классификацией. Тут нужен другой подход, выход в новое измерение, ибо требуется оценить явление далеко не обычного масштаба. Нам трудно дать подобную оценку. Но знакомство с работами Гамлета Исаханлы, его статьями и речами, стихами и поэмами, личные впечатления о нём позволяют нам отметить две особенности его творческой натуры.

Гамлет Исаханлы – один из людей, остро воспринимающих целостность мира, взаимодействие всех его материальных и духовных проявлений, которое и следует понять и почувствовать. Он любит и чувствует музыку и поэзию, лучше других искусств выражающую мечту о красоте как гармонии частей целого. Я думаю, его больше привлекает полифоничность мира, значительность каждого его проявления – научного, технического, спортивного – в общем ансамбле логики и эстетики бытия. Если вспомнить ещё раз фразу Гильберта: «математика есть единая симфония бесконечного», то гамлетовское – словом «симфония». Казалось бы, постоянные размышления над многообразными математическими проблемами должны были полностью занимать всё время и всю мощность гамлетовского интеллекта. Но нет – его внутренний мир огромный оркестр, возможностей и инструментов которого хватает и на многие вещи, далёкие от науки. Иногда хочется так и сказать словами Гамлета Исаханлы: «Вы не должны иметь обо мне представление как о человеке, который знает только математику; я принадлежу к тем людям, кто имеет собственное мнение более или менее по любому вопросу». Он математик исключительной широты, безграничным является его кругозор и в философии, экономике, политике, географии, спорте, в вопросах, связанных с искусством и литературой.

Гамлет Исаханлы так же верит в разум и творческие возможности каждого человека. Ко всем, с кем ему приходится встречаться, он относится с теми же высокими моральными и интеллектуальными требованиями, что и к самому себе. Он общается с человеком как равным себе. И тогда талантливый и трудолюбивый человек начинает верить в свои силы и начинает работать.

Есть много больших математиков, добившихся замечательных результатов в тех областях науки, которыми они занимаются. Но есть немногие из них, кто в математике умеет всё, кто видит всю математику целиком, со всеми её связями с другими видами человеческой деятельности, с искусством и литературой. К числу немногих принадлежит и Гамлет Исаханлы.

Но чем же вызвано обращение к поэзии ученого, с юных лет утвердившего себя в точных науках?

Чтобы ответить на этот вопрос, наверно, следует обратиться к его стихам (см. Гамлет Исаханлы. Контрасты. Книга стихотворений. В переводах Аллы Ахундовой. Москва, Изографъ, 2006):

Стариннейшей тоски стариннейший вопрос:
Зачем живу? Что в этот мир принес?
И что останется от всех моих стараний,
Потерь, приобретений, обещаний?

И ученый, и поэт по сути занимаются одним и тем же - ищут ответы на поставленные жизнью вопросы, стремятся разгадать тайны мироздания, жизни, смысла самой жизни… И не на все вопросы можно ответить путем математических подсчетов. На многие и многие вопросы, поставленные в приведенном выше отрывке из стихотворения Гамлета Исаханлы люди искали ответы тысячелетиями и отвечали. Но вопрос при жизни каждого нового поколения возникал снова и снова, ибо каждый из них для каждого человека имеет свое индивидуальное наполнение, изначально несколько отличающееся от общего, скажем так, гипотетического для всего человечества. Да и для более крупных сообществ - на уровне народов, наций, стран - определенной эпохи ответ на подобные вопросы могут, да и звучат неодинаково, ибо как говорит поэт:

Сколько в мире тайн? Считаем…
Книги умные читаем…
На природу уповаем,
Истиной не дорожим…
Этот мир - непостижим!

«Этот мир - непостижим»,- утверждает поэт. Но при этом пытается силой поэтического слова постичь его, раскрыть смысл самой

жизни.

Человек приходит в мир, стремится постичь его, открывая для себя каждый день все новые и новые грани, оттенки мира, через бабушкины, дедушкины сказки отправляется в мир чудес, потом сталкивается с жесткой действительностью и до конца своего земного пути пытается понять, что же такое жизнь. И все же до конца разгадать эту загадку не может. В математике ответом некоторых задач является бесконечность. Таким же бесконечным процессом является постижение, познание жизни. Можно прожить и пятьдесят лет, и сто… Но раскрыть до конца суть этой жизни невозможно, но стремится к нему надо, ибо, возможно, смысл жизни частично и в этом.

Одним из весьма примечательных стихотворений Гамлета Исаханлы является «Корни», в котором органически соединились традиции азербайджанской ашугской поэзии с основными тенденциями развития современной азербайджанской поэзии. При этом благодаря предельной смысловой наполненности каждой строки, каждого слова стихотворение выделяется из потока современной псевдофилософской поэзии. Поэт не философствует, а ищет опять-таки смысл жизни.

Когда-то с матерью родной
Я был единым целым…
Мы были две души в одной,
Единокровным телом.

Она была мой небосвод,
Моя земля и пища.
Я наливался в ней, как плод,
Сокрытый в корневище.
И разрывать единства связь
Была такая мука!
Родился я… И родилась
Длиною в жизнь разлука.

В азербайджанской ашугской поэзии имеется жанровая форма (вуджуднаме), в которой авторы расписывают жизнь человека с момента рождения до самой смерти, а иногда и после. И в данном, процитированном нами стихотворении прослеживается данная тенденция - прослеживается жизнь лирического героя от рождения до самой смерти. Но это не самоцель. У автора это обусловлено стремлением дать ответ на вечный вопрос: «В чем смысл жизни?»

Человек приходит в мир, и начинается его земной путь длиною в жизнь, которая сама по себе распадается на несколько частей. Сначала - детство. Об этом периоде сказано:

Я стал отдельным существом,
Беспомощным, плаксивым…

Его кормят «благословенным» молоком матери, чуть позже, когда он малость окрепнет, он сначала встает на четверинки, потом начинает ходить, бегать… Но наступает день, и он пускается в самостоятельное плавание в море под названием жизнь. Как сказано у Гамлета Исаханлы: «Так жизнь сказала мне: иди!»

А дальше:
Менялись жизни берега,
И я, по божьей воле,
Жил, как волна, как облака,
И как былинка в поле.

Но я бросался головой
В водоворот и омут,
Самостоятельный, живой
Приобретая опыт.

Жизнь - это путь от рождения до смерти, на этом пути человек постепенно расходует отпущенный ему срок. Но самое главное: на что и как расходовать этот бесценный дар?

Но что ждет его в конце этого пути и стоит ли боятся этого конца? В этом для Гамлета Исаханлы тайны нет. От рождения до смерти человек проходит путь развития, движется вперед и выше. Впереди его, скорее всего, ждет еще более высокая ступень, если земную жизнь он прожил как подобает носителю высокого звания человек. А телом он сольется с родной землей.

…«Прекрасно!
Я буду прахом и золой,
Простясь со светом белым…
Но стану с матерью-землей
Опять единым целым.
Мы будем две души - в одной,
Единокровным телом»,- устами лирического героя говорит поэт.

Но между этими полюсами жизни находится сама жизнь. В чем же её смысл?

Может в постоянном движении и продвижении. Человек постоянно куда-то стремится, идет, едет, расширяя горизонты своего мировидения. Образно это поэтом сказано довольно просто, точно, но и с определенной болью:

В города из деревень
Едут все, кому не лень.

Сказав это, автор подчеркивает, что у каждого своя цель при таком перемещении в пространстве:

Кто учиться, кто лечиться,
Кто работать, кто жениться.
Кто-то едет торговать,
Кто-то едет воровать.
Кто за этим, кто за тем,
Кто неведомо, зачем...

Но эта длинная череда перечислений завершается несколько неожиданно. В несколько жизнерадостный ритм и перечислительную интонацию стиха вдруг врывается слово смерть:

В города из деревень
Едут все, кому не лень,
Едут город - покорять,
Едут в город - умирать.

Навряд ли поэт в данном случае имел в виду чисто физическую смерть. Город нивелирует человеческую личность, зачастую обезличивает его. В городской суматохе человек часто отрывается от своих корней, становится одним из многих, утрачивая свою индивидуальность, чаще всего стремясь выжить в этом человеческом море во что бы то ни стало. А это бесследно не проходит. Человек утрачивает свое «я», а это тоже смерть, порой даже похуже, чем смерть физическая.

Интересны стихи поэта о любви, о природе, о городе, деревне…

Романс «Я просто очень вас люблю» автор посвятил любимой жене – Наиле ханым. Его любовь проста и в то же время божественна и чиста:

Люблю всё больше, всё нежней, сильней и проще...
И не свищу, как соловей в зеленой роще,
Люблю, как любит землю дождь, как ливень – реку,
Простой любовью человека к человеку,
Но эту песню петь могу и дни, и ночи,
Я просто очень вас люблю,
Ну очень просто!

Прекрасные чувства сливаются в гармонию с природой и создают оркестр, поющий о прекрасной любви поэта .

Гамлет Исаханлы поэт, который размышляет на лоне природы о вечном, и взгляд его устремлён в небытие, в истинный мир, не выражаемый зримыми образами.

Его стихи о любви, о природе, о жизни – это не изображение природы, любви, а отражение души, и это - тяга к вечному – это преклонение перед вечностью и отсюда, происходит преуменьшение того, что относится к миру земному, материальному. Мир Гамлета Исаханлы – это мир духовный. И именно своим духом он равен и, может быть, даже превосходит небожителей, ибо сила его переживаний намного выше, потому что он может потревожить всех своими мыслями , стихами, произведениями, в то время как другие, нарушить его покой не могут:

Законник, грамотей, творец и разрушитель
Я – суфий, я – дервиш, безумный я сказитель
Меня поэтом делает любовь,
А не любовь к стихам, в любви я – небожитель.

Познание бывает логическим, а так же и чувственным. Счастлив тот, кто достаточно подготовлен для познания мира одним из этих путей, а тот, кто имеет возможность постигать мир обеими путями познания, - счастлив вдвойне. А ученый и поэт Гамлет Исаханлы познает мир и посредством логики, и посредством чувств, а выражая свои мысли и чувства посредством поэтических средств, стремится к четко обосновать и разъяснить каждое положение своих суждений. Возможно, это и является одной из основных особенностей его поэзии.

ŞƏXSİYYƏTLƏR

Qənirə PAŞAYEVA
millət vəkili

DÜNYANIN İTİRDİYİ BÖYÜK ADAM

Birinci yazı



"Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, Layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın başəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək, öz xalqını daha da yüksəklərə qaldırmışdır". (Heydər Əliyev)

"Türk xalqının içindən çıxaraq Osmanlı imperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət" yaratdı

O, "NƏ MUTLU TÜRKÜM DEYƏNƏ" - dedi, türk millətinin ruhunun əsarətdən qurtulub yüksəlməsində misilsiz və əvəzolunmaz xidmətlərin müəllifi oldu. Türkiyə Cümhuriyyətinin qurucusu olan bu böyük dahi ATATÜRK idi... Mən isə deyirəm ki, nə mutlu Atatürkü sevənə!

"Nə mutlu türküm deyənə" şüarı ilə bütün dünyadakı türkləri öz kimliyi ilə qürur duymağa, mübarizəyə, birliyə çağırırdı dahi Atatürk!

10 noyabr onu itirdiyimiz gündür. Bütün türk dünyası üçün ən hüznlü tarixlərdən biri. Həyatdan bir insan, bir lider deyil, bir dahi, bir TARİX köçdü... O, deyirdi: "TARİX YAZMAQ, TARİX YARATMAQ QƏDƏR ÖNƏMLİDİR". ATATÜRK yeni TARİX yaratdı və yeni TARİX yazdı. O, türk millətinin ən şanlı səhifələrindən birinin TARİXini yaratdı. Həm də bütün dünyanı bu TARİXlə hesablaşmağa məcbur etdi...

Onun haqqında çox deyilib, çox yazılıb. Türk xalqının onu sevməsi, onun haqqında ən gözəl sözlər deməsi təbiidir. O, yox olmaq təhlükəsi ilə üz-üzə qalan qosqoca bir məmləkəti xarabalıqlar içindən qaldırıb, möhtəşəm bir dövlət qurdu, türk millətinin xilaskarına çevrildi. Tanrı onu türk millətini xilas etmək üçün göndərmişdi.

30 avqust 1922-ci il zəfərindən sonra əcnəbi bir şair, öz hisslərini belə ifadə etmişdi: "Tanrı bir topluma yardım etmək, kömək göstərmək istəyəndə, o toplumun başına Mustafa Kamal Paşa kimi bir lider gətirir..."

Bu, danılmaz bir gerçəkdir. Dahi Atatürk türk millətinin ən çətin günlərində Tanrının göndərdiyi xilaskar oldu! Böyük Atatürkün türk millətinə misilsiz xidmətlərini sadalamaqla bitməz. O, Türkiyə Cümhuriyyətinin qurucusu olaraq, adını türk millətinin tarixinə qızıl hərflərlə yazmış əvəzedilməz bir liderdir. Bu günkü Türkiyə Cümhuriyyəti öz varlığı üçün Atatürk və onun milyonlarla silahdaşına borcludur.

Unutmamalıyıq ki Atatürk:

35 yaşında general,

40 yaşında ali baş komandan olan,

42 yaşında cümhuriyyəti quran,

44 yaşında şapka və qiyafət inqilabını həyata keçirən,

46 yaşında "Nitq"ini yazan,

47 yaşında türk əlifbasını tətbiq edən bir GƏNCDİR.

Onu digər liderlərdən fərqləndirən ən mühim cəhəti, yalnız ölkəsini xilas etməsi deyil, həm də xilas etdiyi torpaqlar üzərindəki bütün varlıqların məsuliyyətini də öz çiyinlərində hiss etməsidir.

Amerikalı tarixçi və psixiatr, professor Arnold Lüdviq 18 illik bir tədqiqat nəticəsində 11 müxtəlif kateqoriyada əldə etdiyi məlumatlara əsasən, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün XX əsrin ən böyük lideri olduğunu açıqlayıb. Professorun verdiyi məlumata görə, onun araşdırmasının meyarları "yoxdan ölkə yaratmaq, əraziləri genişləndirmək, hakimiyyətdə qalma müddəti, hərbi müvəffəqiyyətlər, sosial planlama gücü, iqtisadi müvəffəqiyyətlər, dövlət xadimliyi, ideologiya müəllifi olmaq, əxlaqi baxımdan nümunə olmaq, siyasi miras və ölkə əhalisinin sayı" maddələrindən ibarət olub. Qiymətləndirmə, 199 ölkədə hakimiyyət başına keçmiş olan 1941 lider arasından seçilən və bəşəriyyət tarixində iz qoymuş 377 lider arasında aparılıb.

Atatürk, ona rəqib olmuş insanların, dövlət xadimlərinin çox yüksək qiymətləndirdiyi nadir şəxsiyyətlərdən biridir. Hətta hərb meydanında ona rəqib, düşmən olmuş insanlar da, bu böyük şəxsiyyətin dühası barədə qibtə hissi ilə danışırdı. Mən bu yazımda daha çox əc-

nəbilərin Atatürk barədə söylədiyi fikirlər üzərində dayanacağam. Əgər yabançılar bu şəxsiyyətin dühası önündə baş əyirsə, qürur duyursa, biz ikiqat qürur duymalıyıq.

1922-ci ildə Türk ordusunun zəfəri nəticəsində Anadoluda apardığı siyasəti iflasa uğrayan İngiltərənin baş naziri David Lloyd ölkəsinin parlamentində üzləşdiyi ittiham və tənqidlərə görün nə cavab verir: "Dostlar, yüzillər nadir hallarda dahi yetişdirir. Bu talesizliyimizə baxın ki, o böyük dahi çağımızda türk millətinə nəsib oldu. Mustafa Kamalın dahiliyi qarşısında əldən nə gəlirdi ki... İnsan qürur duyur... Atatürk dünyanın bu gün əsas gücləri olan qüvvələrin demək olar ki, hamısı ilə eyni zamanda üz-üzə gəldi. Türkiyə torpaqlarının bütün istiqamətlərində türk torpaqlarına göz dikənlər, Türkiyəni məhv etmək istəyənlər, param-parça bölmək arzusunda olanlarla Atatürk və silahdaşları savaşdı və bütün dünyaya Türk millətinin gücünü, əzmini, iradəsini, onu yıxmağın mümkünsüzlüyünü göstərdi..."



O, əsl lider idi, milyonlarla türk insanı onun arxasınca ölümə getməyə hazır idi və torpağı, milləti uğrunda gedirdi. 1918-ci ildə Çanaqqala savaşı zamanı söylədiyi "Mən sizə hücuma keçməyi yox, ölməyi əmr edirəm!" ifadəsi ilə hərb tarixinin ən böyük zəfərlərindən birinə imza atdı... İngilis yazıçısı Alan Moorehead yazır: "O gənc və dahi türk liderin həmin zaman Çanaqqalada olması müttəfiqlər üçün taleyin ən ağır zərbələrindən biridir".

1921-ci ildə Sakarya müharibəsi zamanı "Xəttimüdafiə yoxdur, səthi-müdafiə vardır ("Müdafiə xətti yox, müdafiə səthi var" – Q.P.). O səth bütün vətəndir" dedi və hərb tarixinə yeni bir məfhum gətirdi...

O, yalnız böyük komandan yox, həm də azman bir fikir adamı idi. Onun müxtəlif illərdə söylədiyi fikirlər həmişəyaşar aforizmlərə, türk millətinin ideoloji silahına çevrildi:

"Ordular! İlk hədəfiniz Aralıq dənizidir, irəli!" (Başkomandan meydan müharibəsi, 1922);

"Ölkədə sülh, dünyada sülh!" (Ankara, 1931);

"Türkəm deyən nə bəxtiyardır!" (Ankara, 29 oktyabr 1933);

"Hakimiyyət qeydsiz-şərtsiz millətə məxsusdur!" (Ankara, 1923);

"Həyatda ən doğru mürşid elmdir." (Samsun, 23 sentyabr 1924);

"Cümhuriyyət fəzilətdir." (Ankara, 1925);

"Bir ordunun qiymətini müəyyənləşdirən şey, zabit və komandir heyətinin qiymətidir". (Kütahya, 1923).

Bu sadə, lakin mahiyyətcə böyük enerji daşıyıcısı olan fikirlər olmasaydı, İstiqlal savaşı bu qədər coşğun olardımı?

1921-ci ildə Yeni Türk dövləti ilə Ankara müqaviləsinin imzalanması səbəbindən "Bizi arxadan vurdu, dağ başındakı haydutlarla, Mustafa Kamallarla anlaşdı" deyənlərə Fransa baş naziri Briandın ölkəsinin parlamentində verdiyi cavab belə olmuşdu: "Dağ başındakı haydutlar deyə adlandırdığınız qəhrəman Mustafa Kamal və onun bütün əsgərləri burda olsaydılar, bir-bir hamısına heykəl qoyardıq". Bu etiraflar insanda sözün həqiqi mənasında qürur doğurur.

Suriyanın "Əlifba" qəzeti yazırdı: "Vətənini mütləq bir parçalanmadan qurtararaq dövlət gəmisini güvənilir bir limana götürdükdən sonra millətindən bir taxt istəmədi. O, sözün bütün anlamı ilə bir insan, əvəzsiz bir dahi, qəhrəman bir hərbçi və siyasət adamı idi..."

Azərbaycanın milli lideri Heydər Əliyev deyirdi: "Şəxsən mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün türk xalqı qarşısında xidmətləri əvəzsizdir. Yəni o qədər böyükdür ki, ona qiymət vermək çətindir. Amma bunların içərisində onun iki böyük xidməti var. Birincisi, Türkiyə Cümhuriyyətinin yaranması; ikincisi, türk ordusunun yaranmasıdır".

"Türkiyə ordusu güclü ordudur. Bunu Mustafa Kamal Atatürk yaradıbdır. Mən bu gün böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, türk ordusu, türk əsgəri Mustafa Kamal Atatürkün ideyalarına, onun vəsiyyətinə, yoluna daim sadiq olmuşdur".

1938-ci il; Amerikalı general Mak Artur ən çətin, ən mürəkkəb və ən böhranlı anında birdən-birə çox sıxılaraq, ətrafındakı 120-dən artıq adama müraciətlə belə demişdi: "Hal-hazırda heç birinizi yox, öz böyük istedadı ilə Mustafa Kamalı yanımda görmək üçün nələrdən keçərdim!" Belə bir həsrətlə yad edilən Mustafa Kamalı...



1938-ci il, 10 noyabr... İstanbul Universitetinin hüquq fakültəsinin alman professoru həmin gün hər kəsi ağrıdan acı xəbəri eşidir və dərsə girib-girməməkdə tərəddüd edir. Rektorun yanına gedir və professorla rektor arasında belə bir dialoq yaşanır:

- Bu vəziyyətdə necə hərəkət eləmək lazım olduğunu bilmirəm.

- Sizdə belə böyük bir dövlət xadimi öləndə necə edirlərsə, elə edin.

- Bizdə bu qədər böyük bir dövlət xadimi ölməyib axı...

Dünyada qibtə hissini yaradan Mustafa Kamal...

Fransalı professor Maurise Beaumont yazırdı: "Əski Osmanlı imperatorluğu bir xəyal kimi ortadan silinərkən, milli bir Türk Dövlətinin quruluşu bu çağın ən şaşırtıcı uğurlarından biridir. Mustafa Kamal böyük bir əsər qoymuşdur. Atatürkün parlaq uğuru bütün sömürgələr(müstəmləkələr) üçün bir örnək olmuşdur".

1971-ci il. Türkiyədən 15 min kilometr uzaqda, Karib dənizi ilə Atlantik okeanı arasında yerləşən Haitinin prezidenti vəfat edir. Prezident bir vəsiyyət məktubu qoyub. Məktub açılır, içindən məzar daşına yazılmasını vəsiyyət etdiyi mətn çıxır. Bu gün, Haiti prezidentinin məzar daşında yer alan o mətn belədir: "Həyatım boyu özümə Türkiyənin öndəri Mustafa Kamal Atatürkü nümunə götürərək yaşadığım üçün çox bəxtiyaram".

Atatürk hələ məktəb illərindən etibarən ölkəsinin problemləriylə maraqlanmağa başlamışdı. O, kəskin zəkası ilə ölkəsində və dünyada yaşanan dəyişikliklərin toplumların gələcəyinə hansı şəkildə təsir edəcəyini və onları nələrin gözlədiyini sezmişdi. Bu sezgisiylə o, gələcək üçün planlarını tərtib edə bilmişdi. Bu planlar, o dövrün şərtləri daxilində çoxları tərəfindən həyata keçirilməsi mümkün olmayan xəyallar kimi qiymətləndirilsə də, Atatürk üfüqlərin arxasına uzanan yolunda qətiyyən geri addım atmadı. Bu yolun sayəsində müasir Türkiyə xəyal olmaqdan çıxaraq, həqiqətə çevrildi.

Hərb Akademiyasında ikən Atatürkdən bir düşmən hücumuna qarşı plan hazırlamaq tələb olunmuşdu. Xəritənin qarşısına keçərək, İzmirə çıxan bir düşmən ordusunu necə dənizə tökəcəyini illər öncəsindən izah etmişdi.

До беременности она всегда называла меня бесплодной и говорила, что если бы она была замужем, то уже имела бы пятерых детей, не меньше. Она повторяла эти слова при всех: родственниках, соседях, друзьях. При каждом звонке или встрече я слышала одно и то же, но ни разу так и не ответила: «Так выходи и рожай. Что же ты сидишь?!» Хотя, иногда очень хотелось.

Внешне она не была некрасивой, иногда ее даже можно было назвать симпатичной. Проблема была в ее поведении. У Сонай был настолько отвратительный характер и колкий язык, что, будь я парнем, я бы тоже не рискнул жениться на ней.

Несмотря на все мои старания, Сонай была враждебно настроена. Зря я надеялась, что узнав о том, что скоро станет тётей, она изменит свое отношение ко мне. Ее испепеляющий змеиный взгляд, как и прежде, преследовал меня повсюду… и за день до нашего отъезда этой вредной женщине все-таки удалось довести меня до слез.

В тот день у меня сильно болели ноги, а к вечеру даже отекли, и я решила ненадолго прилечь в своей комнате.

Мне сложно было назвать ее «своей», потому, что Сонай, когда хотела, заходила в нее без стука, лежала на моей кровати, а иногда глаженые мною вещи бесцеремонно летели в сторону, потому, что ей, видите ли, захотелось посидеть именно там, куда я их клала. А на этот раз, из-за обилия людей в доме, большинство которых приехали издалека, в мою комнату, кроме меня поселились еще две женщины, из дальних родственников Амира (а он спал в другой комнате, вместе с двоюродными братьями). И я была полностью лишена покоя и спокойствия.

Так вот, за день до отъезда она вошла в эту самую комнату и, уперев руки в боки, спросила:

- Ты не думаешь, что не очень вежливо лежать, когда дом полон народу?

- Сонай, ноги сильно болят. Дай немного отдохнуть, от меня сейчас мало толку.

- Ты права, от тебя вообще нет толку.

Высказавшись, Сонай специально уставилась на меня в надежде, что я что-нибудь ей отвечу, и она устроит скандал, но я промолчала.

– И вообще, зря ты приехала с Амиром, - продолжила она. - Лучше бы ты осталась в своем Стамбуле.

Я снова ничего не ответила. Не приедь я, она бы такую истерику закатила, назвав меня невежливой, бессовестной и не чтущей обычаев, что после этого ни один из их родственников и знакомых даже не здоровался бы со мной.

Я встала с кровати и подошла к окну, в ожидании, что она уйдет.

На улице было уже темно, хотя ни темнота, ни морозы не мешали деревенским жителям приходить в гости, к тому же без предупреждения, не думая о том, что хозяева могут уже спать.

- Кстати, как там твоя сестра? – спросила Сонай.

- Спасибо, неплохо, - ответила я.

- А почему умер ее ребенок? - в голосе Сонай послышались нотки злорадства.

- Сонай, пожалуйста, мне не хочется об этом говорить, - сказала я, явно показывая нежелание продолжить беседу.

- Знаешь, Сармад, а ведь я брату всегда говорила, что ты приносишь несчастье.

Эти слова застали меня врасплох. Я никак не ожидала услышать такое именно сейчас. Я резко повернулась к ней, и Сонай, увидев мои удивленные глаза, порадовалась и продолжила:

- Предупреждала. Но он не слушал.

Я стояла, словно в ступоре, и не находила, что ей ответить, а Сонай, все не успокаивалась…

- Спустя полгода после вашей свадьбы умерла наша мама. Потом ты родить не могла. Затем забеременела Эсра, но, как бы ты ни скрывала свои чувства, не желала, чтобы она рожала раньше тебя и своими злыми и греховными мыслями убила бедное дитя. Сейчас забеременела сама, но умер наш отец. Видишь? Сплошные беды от тебя. Кто же следующий, может…

Не дослушав до конца, я вышла из комнаты, сильно захлопнув за собой дверь. У меня подгибались колени – как она посмела такое мне сказать, как у нее язык повернулся выговорить все эти слова? Каким же надо быть жестоким и бессердечным человеком, чтобы придумать такое!

Я закрылась в ванной и расплакалась. Слезы катились ручьем, и я никак не могла их остановить. Мне было так больно и так обидно! Все эти месяцы я терпела всё, не проронив ни слезинки, но сил моих больше не было. Все, что накопилось во мне за это время, вырвалось из груди громкими рыданиями.

Наутро мы уехали из деревни. Проведенные здесь два месяца оставили в моей душе неприятные и грустные воспоминания. Слова Сонай звенели в моих ушах. Хотя я уже была далеко от Кёседэрэ, но что-то в глубине души мне подсказывало, что я очень скоро снова увижу ее озлобленное лицо, злые зеленые глаза и услышу грубый низкий голос. А, пока, я была счастлива вырваться оттуда.

Переступив порог своего дома, я глубоко вздохнула и только сейчас поняла, как же я устала. Оказалось, что я сильно соскучилась по своему обычному образу жизни и по общению с мужем, ведь там – в деревне у нас не было возможности нормально поговорить друг с другом. Может теперь, после того, как мы у себя дома, Амир немного придет в себя. За эти два месяца он ни разу не улыбнулся, и мне было больно видеть его таким. Его добрые глаза, глядя в которых я всегда находила успокоение, были полны грусти.

Амир очень любил отца и я тоже. Покойный Мустафа бек и его жена Сафия ханум были абсолютно разными людьми. Конечно, про умерших плохо не говорят, но Сонай была точной копией своей матери. А Амир, к счастью, был похож на отца.

На следующий день после нашего приезда, около девяти часов вечера, раздался звонок. Амир взял трубку. Это был мой брат Тунджай, который узнал о смерти его отца и звонил, чтобы выразить свои соболезнования. Поговорив немного, Амир передал трубку мне.

- Я был ужасно занят, сестренка, не было времени даже с родителями поговорить, и поэтому не знал о вашем трауре, - с досадой и несколько виновато сказал Тунджай, - А как только узнал, так сразу же позвонил. Выражаю свои соболезнования, пусть земля ему будет пухом. Хороший был человек. Понимаю, как Амиру больно, у него очень подавленный голос. Вы уж извините, что не смог приехать на похороны.

- Да, ему действительно нелегко. Надеюсь, что со временем боль от потери немного утихнет.

- Что поделать, все мы когда-нибудь отойдем в мир иной, - грустно произнес брат. - Ты лучше расскажи, как сама, как здоровье?

- Все хорошо, - улыбнулась я, - вот уже последний месяц.

- Последний месяц чего? - спросил он с непониманием.

- Как чего? Беременности, конечно же.

- Беременности? – переспросил Тунджай. – Ты беременна?

- А разве родители тебе не сказали?

- Нет.

Как же так? Почему мама до сих пор не сообщила Тунджаю эту новость, а может, не сочла нужным? Она же прекрасно знала, что я сама не смогу сказать ему об этом, да и как бы я это сделала? Позвонила бы и сказала «здравствуй, брат, я беременна»? Нет, мы не так были воспитаны.

Я почувствовала себя сиротой, до которого никому нет дело.

- Не поверишь, как я удивлен и рад за тебя! - радостно сказал Тунджай. Значит, красавица моя станет мамой? Тебе эта роль так подойдет! Но все равно не понимаю, почему я об этом узнаю последним.

- А я понимаю, - вздохнула я. – Мама с папой не навещают меня и даже не звонят, боясь, что Эсра узнает и снова впадет в депрессию.

- Узнает о чем, о беременности своей сестры, и упадет в обморок? Какая чушь. Они что, там все с ума посходили?

Тунджай явно был в недоумении. Он всегда был реалистом и воспринимал все так, как есть, без прикрас, и, видимо, подобное отношение родителей его шокировало.

Поговорив со мной, он пообещал обсудить этот вопрос с ними, и, на мои уговоры – не делать этого, спокойно ответил: «Не мешай, я знаю, что делаю, это они не понимают, как обижают тебя своим поведением. Это безрассудство. Ни о чем не думай и береги моего племянника».

После разговора с братом мне стало намного легче: его понимание и поддержка были важны для меня.

Пару дней спустя мои родители все-таки навестили меня. Я была несказанно рада их видеть, и сразу забыла все свои обиды.

Весь последний месяц моей беременности я была счастлива. Врачи сказали, что у меня будет здоровый мальчик, от чего у Амира словно выросли крылья. Родители теперь часто приходили к нам. Эсра с Булутом уехали к себе в Измир, и мама уже не боялась своих визитов ко мне, даже иногда помогала мне по дому. Мы много разговаривали с ней, чего давно не делали, и мне этого очень не хватало. Один раз уходя, она поцеловала меня и сказала, что с нетерпением ждет внука.

25 марта ближе к вечеру у меня отошли воды, и мы поехали в больницу. Несмотря на то, что я хотела вести себя прилично, не кричать и не поднимать панику, но режущие боли внизу живота и в пояснице были настолько сильными и нестерпимыми, что я забывала обо всем на свете. Боли были сначала редкими, а потом частыми, и интервалы между ними становились все меньше и меньше. Было неприятно ощущать, как живот становится твердым и сжимается в комочек; каждый раз, меня как будто выворачивали наизнанку, и я просила Аллаха скорее избавить меня от этих мучений. Когда боль внезапно куда-то исчезала, я могла отдышаться и думала только о том, как же это женщины, пережившие такое, могут решаться родить еще одного ребенка?!

Несмотря на все мои сопротивления, Амир тоже присутствовал при родах. Слава Аллаху, они прошли без осложнений, и со звонким криком явился на свет мой долгожданный мальчик. Для меня он был самым прекрасным ребенком на свете, с большими серыми глазами, пухленькими губами и маленьким носиком. Врачи шутили, что малыш родился уже с прической: его темно-русые волосы редкой челкой падали на красивый лоб и делали моего принца неотразимым.

Когда Амир взял его на руки, то расплакался, сказав, что он похож на его покойного отца. Мы, недолго думая, решили: раз уж похож, так назовем ребеночка Омаром, в честь дедушки.

Через пару дней, я вышла из больницы с обожаемым сыном на руках. Амир и мои родители ждали в холле больницы. Папа стоял с огромным букетом роз, а Амир снимал все на камеру. Моя мечта исполнилась, не было для меня в мире счастья большего, чем это.

Казалось, мне на свете больше нечего было желать. Любимый муж, красивый и здоровый ребенок, хороший дом, радость и спокойствие…

(Продолжение в следующем номере)

HƏYAT HEKAYƏTİ

ALİM QASIMOV: "MƏN ONUNLA DÜŞMƏN KİMİ OXUYURAM"

Qonağımız Alim Qasımovdu. O Alim Qasımov ki... təqdimatına bu fikirləri yetərli saymaq olar: "Şeiriyyatın, qəzəlin özü bir musiqidir. İfaçı mətnlə ahəngin arasındadır. İki musiqinin təqdimatçısıdır. Dinləyicinin həsrət dünyasını dinləyiciyə qovuşdurmaqdadır. O, iki aləmin sevdasındadır. Bu aləmlə o aləmin arasındadır. İfası fəlsəfənin özündə kainata səslənməsindədir. "Öz aləmində" bizə bizim aləmi açmasındadır".

Güman edirik ki, Alim Qasımovun özünü bizə özündən yaxşı tanıdan olmaz. Tanış olaq yaşantılarıyla, duyğularıyla.

"Atam anamı istəməsə də, anam ona ərə getməyi bacarıb"

Anam danışardı ki, atanız məni sevmirdi. Mən də bitirdim yolunun üstündə, gözümdən qoymurdum ki, gözü məndən başqasını tutmasın, bir növ, məcbur getmişəm ona, amma...

Amma anam damarlı, qeyrətli, həyatı, dünyanı başa düşən, çətinliyi aradan qaldırmağa özündə güc hiss edən qadın olub. Allaha yalvarırmış ki, iki oğlumdan biri oxuyan olsun. Ritmli, musiqisevər, eyni zamanda, höcət qadın olub. Nə istəsək, bizim üçün eliyən idi. Ancaq bir orası da var idi ki, səsini qaldırardı – qaz ovlamağa, göldə çimməyə, dərələrdə atılıb-düşməyə gedəndə, təbii ki, üstbaş, sir-sifət yerində olmayanda...

"Evdəkilər mənim halıma uyğunlaşırdılar"

Elə uşaqlıqda da, böyüyəndən sonra da gəlib görəndə ki, evdə dava-şavadı, götürürdüm estulu, bir çal-çağır yaradırdım, gəl görəsən. Hamının əhvalı olurdu... mənim əhvalım. Hirs-hikkədən əsər-əlamət qalmırdı.

"Yetimin də günahını öz üstümə götürmüşəm"

Evimizdə özümüzdən başqa iki yetim də saxlanılıb. Məni evdə çox istəyirdilər deyə, nə şuluqluq eləsəydilər, deyirdim deyin ki, Alim eləyib – qab sındırmaqdan tutmuş ta nəyisə dağıtmağacan.



"Seçdiklərim qəlbnəndi, ağılnan yox ki..."

İstər qəzəlləri seçəndə, istərsə də onları oxuyanda qəlbnən seçirəm. Elmnən yox. Mənim bir elə də elmim yoxdu. Savadım da eləcə. Bunlar hissiyyatnandı, istəknəndi. Əvvəllər ustadların, ələlxüsus da Hacıbaba Hüseynovun oxuduqlarını oxumuşam. Sonra yavaş-yavaş cızdan çıxmışam, qəzəlləri seçməyə başlamışam. Ağılnan yox, ürəknən seçdiyimə görə oxuduqlarımı indi cavanlar oxuyur.

"Hərdən oxumaqlarıma qulaq asanda "bərəkallah" dediyim də olur"

Əsas məsələ odu ki, adam gərək özü öz yaratdığından zövq ala bilsin. Hə-ə, sənin zövq aldığın məqama biri gəlib çata bilirsə, sən də görürsən ki, bu adam o zirvəni görür, duyur, onda düşürsən dalınca. "İlahi qəlb" deyirlər də... Əgər o ilahi qəlb varsa, dəyər. Arada elə olur ki, öz oxumaqlarıma baxıram, bir də görürsən ki, özümdən asılı olmadan deyirəm: "bərəkallah".

Yaponlar ifamızda muğamı dinləyəndə etiraf etmişdilər ki, muğamı dinləyəndə cənnət musiqisini eşidiblər.

"Cabbardan da, məndən də yaxşı "Vilayəti-şikəstə"ni oxuyan olar..."

Elə oxumaqlar var ki, yüz ildən bir olur. Mən razı deyiləm o fikirlə ki, filankəs filan ifasıyla möhürünü vurub. Cabbarın da, mənim də oxuduğum «Vilayəti-şikəstə»ni ondan da, məndən də yaxşı oxuyanlar olar.

Bu oxumaqları Allah öz məqamımızda bizə pay verib. Yenə oxuyacaqlar...

"Gözləməyi bacarmaq lazımdı"

O məqama çatmaq üçün Allah-təala mənə bu zülmü verdi, ağlaya-ağlaya getdim toylara, ağlaya-ağlaya qayıtdım. Toylarda da başladım ağlaya-ağlaya oxumağa, camaatı ağlatmağa. Toydan qayıdanda da o lent yazılarını qoyurduq, qulaq asırdıq, evə qədər də ağlaya-ağlaya gəlirdik – oxuduqlarımda hiss olunurdu «nəsə» var.

Bununla bahəm deyirəm, «mənmən» deyə bilmərəm, demək də düz deyil.

Düzdür, oxuduğumda qeyri-adi hallara düşəndə daha çox zövq alıram, lakin adi oxumaqlar olanda, çox enerji itirirəm. Özü də biz bilmirik ki, nə vaxt gəldik o hala...

Bəzən elə olur ki, həyati məsələlər işləməyə qoymur, ancaq işləməyə ki başladım, hər şey yaddan çıxır. Səhnəyə, tamaşaçılar qarşısına çıxıram, bir-iki avazdan sonra həyati problemlər yox olur. Canımnan-qanımnan oxuyuram.

Özümə aid olan məsələlərdə gözləmirəm. Amma ailə-uşaqla bağlı məsələlərdə lap ölənə qədər də gözləyərəm.

"Mənim olmayan mənim deyil!"

Mənim ağlım çatmayan şeyləri belə Allah mənə verib. Ona görə də, məndə olmayan nəyisə arzulamamışam. YUNESKO-nun mükafatını istəsəydim, necə alardım ki?


"Olmaz"ı "olar" etmişəm

Şıltaqlıqlarım olub - elə şeylər var ki, etməməliydim. Etmişəm. Vaxtını xatırladım - uşaqlıqda... Düzdü, deyirlər «olmaz», olmaz da, amma mənim içimdə istək varsa, gedirəm. Özü də nə əldə eləmişəmsə, deyim ki, bunu nə talantımla, nə savadımla, nə də bicliyimlə əldə etməmişəm. Gördüyün-bildiyin nəyim varsa, qismətdi, nə yoxdusa, mən korlamışam. Mənə İlahi çoxdan çox verib.

"Nəfsə axıracan "yox" demək olmur"

Nəfsi ayaqlayıb ayaq altında saxlamağa hünər lazımdı – bəzən bu hünər çatmayıb. Bala, ata-ana, ailə, ya da ümumiyyətlə nəyinsə xatirinə "yox" deyə bilmirik. Ancaq onu da deyim ki, nəfsnən bir yerdə olsa da, müəyyən şeylərdən imtina bacarığım da var. Nə qədər əziyyət versə də, imtina etməyi bacarıram.

Bir də ki, bir məsələni deyim: insan tam kamilləşəndən sonra Allah-Təala onu bu aləmdə yaşamağa qoymur. Aparır. Ona görə, guya «xatirlər xatirinə» biz «yox» deyə bilmirik. Məsələn, mənə elə gəlir ki, mən işlərimi görüb qurtarmamışam. Tamamlamadığıma görə də o işləri görürəm. Halbuki, ağılnan, dərrakəynən, qismətnən mən işlərimi görüb qurtarmışam.



"Evdə uşaqlarla yumşağam, məhəbbətliyəm..."

Mənim nəzərimdə belədi ki, evin xanımı adamı başa düşsə də, özün başadüşməməzliyə qoyar – *(oxucular bunu mütləq və mütləq ustad sənətkarın usta zarafatı kimi qəbul etsinlər – A.C.).*

Uşaqlara gəlincə... onlarla çox yumşağam, məhəbbətliyəm... yalvarıram, hərdən isə... səsimin zilin eşitdirirəm. Nadir hallarda!!! Azadlıq, sərbəstlik uşaqlar üçün çox böyük sərvətdi.

Qızım özü seçdi yolunu, səhnəyə çıxmamışdan da məsləhətləşdim, çıxandan sonra da – evdə oturub xörək bişirə-bişirə mahnıları yazdırıb da oxuya bilərsən, səhnədə döyüşə-döyüşə də oxuya bilərsən.

Fərqanənin oxumaqlarında razı qaldığım öz yolu, öz ifası var. Özü bir aləm oxuyar sərbəst olsa.

Duet oxuyanda, səlınədə birgə ifamız olanda düşmənçilik başlayır – həm ustad kimi, həm tərəf-müqabil kimi...

Mən onunla düşmən kimi oxuyuram.

Fərqanəni öz yanımda görməsəydim, deyərdim, bir az çalışmaq lazımdı. Amma yanımda olduğundan, o sözü demirəm – görürəm o nələrə əl atır öyrənmək üçün.

Özünə qapılıb oxumaqlarına, muğamın içində xallar vurmağına şahidəm.

"Məqsədli şəkildə Allahın xoşuna gəlmək üçün addım atmamışam"

Həyatda elə addımlarım olub ki, sonralar nəticəsini görəndə razı qalmışam ki, gör, Allaha xoş gedəcək necə iş görmüşəm. Olub ki, arada şeytanın da dediklərinə qulaq asmışam. Səndən asılı olmayan elə işlər var ki, Allaha xatir görürsən, elə işlər də var, heç bilmirsən edirsən və nə boyda savab qazanmağın məlum olur. Allahı düşünmədən, - yəni «bax ha, Sənə xatir edirəm» minnəti qoymamaq mənasında, -

ovsanaya düşən işləri görmüşəm.

"Adam var əliylə istəyir haralarasa çatsın..."

Ağlım kəsəndən həmişə dua eləmişəm ki, «Allah, fürsət ver, bu səsi Sənin yolunda xərcləyim».

Olur ki, konsertlərimdə adamlar yaxınlaşıb mənə deyirlər ki, bizi Allaha qovuşdurdun, bizi ayrı aləmlərə apardın. Onda sevinirəm. Bir adam muğamı başa düşürsə, insafının pası bir cıqqan təmizlənirsə, İlahi aləmə yaxınlaşırsa, onda hesab edirəm ki, səsim «haralarasa» çatır.



"Atamın ailəsiylə mənim ailəmin müqəddəslik fərqi yox kimidi!"

Atamız bizə çox fikir vermirdi, anamız hər şeyi yerbəyer edirdi. Bizim ailədə xanım bir az savadlıdı, Alim Qasımovun böyüdüyü ailəylə Alim Qasımovun ailəsində böyüməyin fərqi bundadı. Necə ailədə böyümüşəmsə, uşaqlarımı da elə ailədə böyüdürəm. Düzdü, "qadoyu alım, başına dönüm" oxşamaları yoxdu.

Səyavuş Aslan xanımımın dayısı oğludu. Sənətə gəlməyimdə onların köməyi olub. Onların xahişi sayəsində Vasif Adıgözəlov məni Asəf Zeynallıya götürdü. Yoxsa, elə toylarda-zadda kimin xoşuna gəlsəydim, aparıb oxudacaqdı məni. Göydə Allahın, burada xanımın qohumlarının səbəbkarlığıyla o qaranlıqdan qurtuldum. Həm də bu qayğıkeşlik sənətimə, konsertlərimə, hətta afişalarıma belə məhəbbəti artırdı. Özləri zövq aldılar, ağladılar mənimlə bir yerdə. Qəzəlləri oxumağımacan, tələffüzüməcən müzakirələr olurdu. Ailədə istək və düzgün, tənqidi araşdırma doğru yolun açarıdır. İndinin özündə də oğlanlarımla qəzəllərdə nəyi necə ifa barədə tənqidi qeydlərlə razılaşıram.

London "Bayatı-kürd"üm çox əzizdi mənə

... Konsertin axırıydı. Fərqanəyə dedim ki, çıx, oxuyaq. Çıxmadı. Acığa bir «Bayatı-kürd» oxudum. Özüm də ağladım, camaatı da ağlatdım, çoxdan bitməli konsert təzədən bir partiya da uzandı, halbuki o biri zalda gözləyirdilər.

Muğamların hamısı ürəkdən tikan çıxarandı. Mənim üçün oxumaqlarımda Londondakı «Bayatı-kürd» əzizdi. İnanmıram da ki, kimsə ona qulaq asanda biganə qalsın! Hələ bütöv muğam deyil də, qopmadı «Rast»dan... hər vaxtı qulaq assan, səni səndən alacaq.

- Sadə olmasam, tez yorularam, bir saat dayana bilmərəm, ya yorularam, ya da ölərəm!

- Bəzən olur ki, mənim sərbəstliyimi almağa çalışırlar, onda deyirəm ki, sən hələ yetişməmisən!

- Məni indi də toylara çağırırlar. Getməsəm də, xətirlərinə dəymirəm, deyirəm: «baxarıq, inşaallah, qismət olsa...»

- Özümlə üz-üzə qalanda baxıram ki, bir xeyli görüləsi iş qalıb. Amma bilmirəm, enerji, ömür çatar, ya yox!

- Eləmək istədiyim ən böyük iş odu ki, bu «İlahi eşq aləmi» ki var, oxuyanda özüm üçün ifanı, tamaşaçı üçün o aləmin dərkini asanlaşdırım!

- Düşdüyüm aləmdə tamaşaçı çoxdu, azdı, fərq eləmir, o aləmin gözəlliyindən zövq alıram.

- İlahinin yaratdığına bir daha və yenidən yaradıcı yanaşmağımızın nəticəsidir ki, dörd ildi burada konsert vermirik.

- Allaha dualarımın biri də budu ki, «mən, mən» deməyə başlasam, məni götürsün! Oxumağa başlayanda dənizdə boğulan adam kimi başlayıram. Çabalayıram ki, sahilə çıxım. Biri seyr etdikcə, məni yaxşı üzgüçü kimi görür, biri çəkdiyim ağrıları hiss edir, digəri artıq sahildə salamat gördüyünə görə qəhrəman kimi baxır.

- Ürəyim istəyən kimi oxuyandan sonra hiss edirəm ki: «Öylə sərməstəm ki, idrak etməzəm, dünya nədir!»

- Ən böyük ehtiyacım «İlahi eşqin ağlamağı»dır!

Aydın CANIYEV
LENT.AZ



Папаша-кот собрался уходить из дома. Котенок его спрашивает:
- Папа, ты куда?
- Я пойду флиртовать.
- А можно мне с тобой?
- Пошли.
Пошли они вместе. Вылезли на крышу. Папаша-кот и говорит сынку: "Ты сиди здесь, а я скоро приду..." Сидит котенок, сидит... Дождик пошел, ветер подул, ночь наступила. Отца нет. Ну, котенок и говорит:
- Вот еще совсем немного пофлиртую и домой пойду...

- Почему ваша кошка по субботам так орёт?
- Мы её моем.
- Ну и что, мы нашу тоже моем!
- А вы, наверно, её не выжимаете!!!

Невропатолог задаёт четырёхлетнему пациенту вопросы:
- Сколько у киски лапок?
- Четыре.
- А сколько у киски ушек?
- Два.
- А сколько у киски глазок?
- Два.
- А сколько у киски хвостиков?
- Мам, этот придурок никогда не видел кошек?

Общаются две кошки:
- И когда он обещал на тебе жениться?
- В марте.
- В марте они все обещают.

Диалог бабушки и оператора службы спасения:
- Милочки! У меня кошечка на дереве под окном сидит, мяучит жалобно, помогите
- снимите ее оттуда?!
- Бабуля, она сама посидит-посидит и слезет.
- А если не сможет? Вдруг она там с голоду умрет?
- Бабуля! Вы когда-нибудь скелетик кошки на дереве видели?!..

UŞAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

MARAQ DÜNYASI RƏNGARƏNG OLAN UŞAQLAR..

Bu dəfəki "səfərim" 7[a] sinfinə oldu. Hər birinin maraq dünyası rəngarəng olan bu uşaqlar məktəbin ən fəal siniflərindən birini təşkil edirlər.

- Salam, uşaqlar! Sizə maraqlı suallarla qonaq gəlmişəm.

- Buyurun, müəllimə.

- Dost dosta arxadır- deyirlər. Sizcə, dosta arxa olmaq çətindir?

- **Aydan**: Mənimçün yox, asandır. Ən yaxın rəfiqəm Simadır. O mənə, mənsə ona arxa durmağı bacarırıq. Həm də düşünürəm ki, mən dost seçməyi yaxşı bacarıram.



Sima: Ən yaxın dostun üçün arxa olmaq elə də çətin deyil.

- **Əvəz**: Mənimçün dosta arxa olmaq həm çətin, həm də məsuliyyətlidir. Çünki özünə necə münasibət göstərirsənsə, onunla da eyni tərzdə davranmalısan. Belə olmasa, dostluqdan danışmağa dəyməz.

- **Emil**: Həm də dost seçəndə götür-qoy etməlisən ki, seçdiyin dost da sənə arxa olacaq, ya yox.

- **Fatimə:** Məncə, dosta arxa olmaqdan daha çətin şey var ki, bu da dostu seçməkdir.

- Sizcə, yaşatmaq çətindir, yoxsa yaşamaq?

- **Aydan**(gülərək): Bu sualı daha çox valideynlərimizə vermək lazımdır...

- **Sima:** Mən də Aydanla razıyam. Hal-hazırda bizimçün yaşamaq, valideynlərimizə isə yaşatmaq çətindir.

- **Əvəz:** Mən "yaşatmaq" fikrinin başqa cür izahını verərdim. Məşhur insanlar var ki, şeirlərində, əsərlərində, ixtiralarında yaşayırlar. Beləcə həm kəşflərini, həm də öz adlarını yaşada biliblər...

- **İ. Toğrul**: Məncə, yaşatmaq daha çətindir. Maddi vəziyyəti çətin olanları da unutmamaq lazımdır.

- **H. Toğrul**: İnsan böyüdükcə yaşatmaq da, yaşamaq da çətinləşir.

- **Emil:** Hər bir kəs gördüyü işdə nəyi isə yaşadır. Bağban gülləri yaşadır, bənna tikdiyi evlərə həyat verir... Hər anlamda yaşatmaq həm maraqlı, həm də çətindir.

- **Aslan:** Mənsə düşünürəm ki, yaşamaq çətindir. Həyatda qalmaq, yaşamaq uğrunda mübarizə aparmaq çətindir...

- **Fərhad:** Hər ikisi çətindir. Çünki həm öz həyatına, həm də yaşamağına kömək etdiyin insanın həyatı-

na cavabdehsən.

- Həzrəti Məhəmməd (s.ə.s.) buyurub: Qənaət ən böyük sərvətdir. Bəs siz, uşaqlar, nəyə qənaət edirsiniz?

- Aydan: Vaxta! Çünki riyaziyyat müəllimimiz Dilarə müəllimə neçə illərdi bizə deyir ki, uşaqlar, hər saniyənin qədrini bilmək lazımdır (gülür).

- Sima: Məncə də vaxta! Hər gün yeni uğur əldə etmək, çalışmaq və vaxtdan qənaətlə istifadə etmək lazımdır.

- Fərhad: Hər saniyənin qədrini bilmək lazımdır. Çünki insan həyata bir dəfə gəlir.

- Aslan: Vaxta! Unutmamalıyıq ki, saat soldan sağa işləyir, sagdan sola yox!

- A.Toğrul: Şəraitə baxaraq hərəkət etmək lazımdır. Tələb olunan nədirsə, ona da qənaət etmək vacibdir.

- M. Toğrul: Evdə işığa, suya qənaət etmək vacibdir. Böyüyəndə isə hər addımı ölçüb-biçmək, qənaət etməyə çalışmaq lazımdır.

Əvəz: Məncə, həyatda vaxt haqqında düşünməkdən də daha vacib olan şey ailə üzvlərini, dostlarını qorumaq, onların dəyərini bilmək, onlarla çox vaxt keçirmək lazımdır. Çünki, itirdiklərini geri qaytarmaq çətindir...

H. Toğrul: Valideynlərimizin bizə yaratdıqları şəraiti dəyərləndirərək hər şeyə qənaət etməliyik.

- Hər kəs sözünün köləsidir - deyirlər. Necə düşünürsünüz, kimə isə söz verdiyiniz zaman "sözünüzün köləsi"nə çevrilirsiniz, yoxsa...

- Əvəz: Məsəl var, sözü ağzında bişirib deməlisən. Belə olanda, sözə əməl edirsən və onun köləsinə çevrilmək də asan olur.

- M. Toğrul: Məncə, kişi söz verdisə, onu etməlidir.

- Emil: Mən bəzən verdiyim sözə əməl edə bilmirəm. Məsələn, Aygün müəlliməyə sakit duracağım haqda verdiyim sözə əməl edə bilmirəm.

- Özünüzə tez-tezmi hesabat verirsiniz?

- Sima: İdeal insan yoxdur. Hər gün səhvlərimizi bilmək, uğurlarımıza sevinmək üçün hesabata ehtiyacımız olur...

- Aydan: Hər günün sonunda özümə suallar verirəm və çox vaxt da razı qalıram.

- Əvəz: Çox vaxt, düzü, özündən heç nə soruşmuram. Yalnız sabahkı günün planını düşünürəm.

- Türkan: Mənsə çox vaxt razı qalmıram. Həmişə elə bil nə isə çatmır.

- Aslan: Hər axşam özümdən haq-hesab soruşuram, 5-ci gündən başqa (gülür). Çünki növbəti iki gün istirahət günüdür axı...

- Məmməd: Test yazan günü soruşuram, qalan



vaxtlar yox...

- M. Toğrul: Özümlə hesabatım çox vaxt məni qane etmir. Özümdən razı qalmıram. Amma səhvlərimi düzəltməyə çalışıram.

- Emil: Mən özümdən heç vaxt razı qalmıram.

- İ. Toğrul: Hər gün özümlə söhbət edirəm, dostlarımla rəftarıma xüsusi diqqət edirəm ki, onları incidəcək hərəkətlərə yol verməyim.

- Fərhad: Hər gün özümə hesabat verirəm:bu gün nə etmisən? Çünki bizdə ətrafdakı insanlara qarşı məsuliyyət var, bunu unutmamalıyıq. Səhv edəndə düzəltmək vacibdir.

- Əziz uşaqlar, mən sizə gələcək həyatınızda, dərslərinizdə uğurlar arzulayıram!

Uşaqlarla söhbətləşdi:
Mədinə RZAYEVA

"NOYABR AYI DİLLƏR AYIDIR"

Noyabr dillər ayı elan edilmişdi. Məktəbimizdə bu ay çox fəal keçirildi. Şagirdlər və müəllimlər bu tədbirlərdə böyük həvəslə iştirak etdilər.

Bizim sinfimizin şagirdləri də bu tədbirlərə böyük ruh yüksəkliyi ilə qatılmışdılar. Bizim qrupumuz (mən, Aydan, Türkan, Fatimə, Toğrul, Aslan) da Nərgiz müəllimənin köməyi ilə 2 layihə hazırladı. Birinci layihəmiz "Can you guess my nationality?" idi. İkinci layihəmiz isə "Book Exhibition". Sərgimizdə müxtəlif dillərdə kitablar toplusu nümayiş olunurdu.

Biz hazırladığımız layihələrimizlə 8a sinfi qarşısındada cıxış etdik. 8b sinfi isə bizə öz layihələrini nümaiş etdilər. Onların layihələri və oxuduqları "Tell Me Why" mahnısı çox gözəl idi.

9b sinif şagirdləri Fəridə, Səkinə, Əbil və Şəmistan bizə italyan dilində İtaliya və onun mədəniyyəti haqqında maraqlı məlumatlar verdilər. 1a sinif şagirdləri bizim üçün ingilis dilində mahnılar ifa etdilər və kukla tamaşası göstərdilər. Onların gözəl və maraqlı çıxışları bizi öz balacalıq illərimizə qaytardı.

Biz ingilis dili ilə yanaşı italyanca da layihələr hazırlamışdıq. Mən, Aydan, Türkan, Fatimə italyan dilində "Testo Sara Perche Ti Amo" və "Mamma Maria" mahnılarını ifa etdik.

Dillər ayı bizim üçün çox maraqlı və yaddaqalan keçdi.

Cabbarova Sima,
7a sinfi

ÇƏKMƏÇİ


nağıl

Biri var idi, biri yox idi, bir çoban var idi. Bu çobanın bir sürü qoyunu var idi. Sürünün keşiyini həmişə onun vəfalı iti çəkirdi. Bir qaçaq-quldur bu itin qorxusundan sürüyə yaxın düşə bilmirdi. Eh, bu it o qədər canavar, ayı parçalamışdı ki... Indi isə qocalmışdı, zəifləmişdi. Güclə yerindən qalxırdı. Çoban işi belə görüb sürüsünün bir gün gözətçisiz qalacağından qorxdu. Odur ki, hardansa bir küçük tapıb gətirdi. Çoban itlərin hər ikisinə yaxşı qulluq edirdi. Amma bu, küçüyün xoşuna gəlmirdi. Acgöz olduğundan yemək üstə qoca itlə hər gün dava-dalaş edirdi.

Bir gün küçük çobanın ayaqlarına dolaşdı, quyruq buladı və dedi:

- Görürsənmi bu qoca köpəyi? İşi yeməkdən başqa bir şey deyil. Əgər onun payını da mən yesəm, tezliklə böyüyərəm, güclü olaram. İndi bütün ümidlərin, axı, mənədir. Qov onu, hansı cəhənnəmə istəyir çıxsın getsin.

Çoban küçüyün məsləhətinə qulaq asdı. Bir gün üstünə qışqırdı, sabahısı gün kötəyə əl atdı. İşi belə görən qoca it başını aşağı salıb məyus-məyus sahibinin yanından uzaqlaşdı. İt gəlib bir meşəyə çatdı. Aclıq onu əldən salmışdı. Özünü ora-bura vurub yeməyə bir şey axtardısa da, heç nə tapa bilmədi. Birdən köhnə bir daxmacığa rast gəldi. Özünü güc-bəla ilə içəri salıb uzandı:



- Bəli, deyəsən, mənimki də, buracan imiş - deyə fikirləşdi.

O, beləcə xeyli uzanıb qaldı. Birdən qulağına şıqqıltı gəldi. Güclə də olsa, qalxıb pəncərədən çölə baxdı. Gördü ki, bir canavar daxmaya yaxınlaşır. Sən demə, daxma canavarların yolu üstə imiş. Canavar daxmaya çatanda qışqıra-qışqıra dedi:

- Ey, burada kim var?

- Mən varam - deyə it cavab verdi.

Canavar:

- Sən kimsən? Orada nə iş görürsən?

- Mən nə iş görəcəyəm? Çəkməçiyəm, çəkmə də tikirəm. Təki əlimdə dərim olsun.

- Hə, bu lap yaxşı oldu. Çoxdandır özümə çəkmə tikdirmək istəyirəm. Çəkməçi, mənimçün bir cüt çəkmə tikə bilərsənmi?

- Niyə tikmirəm. De görüm dərin varmı?

- Yox,yoxumdur. Amma dəri tapmaq elə də çətin deyil. Söylə görüm, nə cür dəri lazımdır?

- Bilirsən, çəkmənin altı üçün dana dərisi, üzü üçün qaban dərisi, boğazı üçün də qaz dərisi lazımdır.

- Hə, deməli, əvvəlcə dana. Yaxşı, sabah dəri burada hazır olacaq.

- Yox, yox, sən dananı mənim yanıma salamat gətir. Yoxsa dişin batıb dərisini korlar. Gərək onu mən özüm kəsəm, dərisini özüm soyub aşılayam.

Canavar çıxıb getdi və sabahısı gün yekə bir cöngəni sürüyə-sürüyə gətirdi:

- Çəkməçi, bir bax gör bu cöngə çəkməmim altlığı üçün bəs elər?

- Elər, elər. Qoy dursun yerində. Düz on günə dəri hazır olacaq. Sonra da qabanı gətirərsən. Bax, yadında saxla. Qabanı da diri-diri gətir. Dişləyib dərisini korlamayasan ha...

- Düzələn işdir. Təki sən mənimçün çəkmə tik.

Canavar getdi qaban axtarmağa, it də cöngəni daxmaya çəkib ləzzətlə yeməyə başladı. O, ətdən yeyib, daxmanın yaxınlığındakı bulağın sərin, dumduru suyundan içdikcə cana gəlməyə başladı.

Düz on gün keçmişdi ki, canavar indi də bir zorba qabanı sürüyə-sürüyə gətirdi:

- Çəkməçi, bu da qaban. İndi nə deyirsən?

- Nə deyəcəyəm ki, cöngənin dərisini qurutmuşam, hazırdır. Bu qabanın dərisi də çəkmənin üzü. İndi bircə qaldı çəkmənin boğazının dərisi. Nə az, nə çox, düz on gündən sonra düz dörd dənə də qaz tutub gətirərəsən. Ehtiyatlı ol, qazların dəriləri sağ-salamt olsun.



- Arxayın ol! Necə deyirsən, elə də olacaq. Canavar belə deyib getdi. İt indi də başladı qabanın ətindən yeyib, soyuq sudan içməyə.

Vaxt-vədə on günə çatanda canavar dörd qaz tutub gətirdi.

İt dedi:

- Dost, sənin işin düzəldi. Düz on gündən sonra gəl çəkmələrini gey, gəz kef elə.

Canavar sevinə-sevinə qaçıb daxmadan uzaqlaşdı. İt indi də canavarın gətirdiyi qazların ətini yeməyə başladı. O, elə bil cənnətə düşmüşdü. Yedikcə güclənmiş, elə bil lap cavanlaşmışdı.

On günün tamamında canavar gəlib çıxdı. Qışqıra-qışqıra:

- Çəkməçi, tez ol çəkmələrimi ver - dedi.

- Sən hansı çəkmələrdən danışırsan – deyib, it daxmanın qapısından düz canavarın üstünə sıçradı.

Heyrətdən canavarın gözləri bərələ qaldı. Heç yerindən tərpənə bilmədi. İt isə onu elə didişdirir, elə didişdirirdi ki, canavar işinin bitəcəyini görüb arasıkəsilmədən bərk-bərk ulamağa başladı. Bütün canavarlar töküləşüb buraya gəldilər. Qanlı vuruşma başladı. İt də bu canavarı burda, o canavarı orda basıb boğurdu. Canavarların başçısı qışqırdı:

- Dayanın! İtin üstünə cummayın, hamınız yanıma gəlin.


Canavarlar başçılarının ətrafına toplaşdılar. O dedi:

- Siz nə edirsiniz? Görmürsünüz o necə güclüdür, cəlddir. İstəyirsiniz ki, o sizin hamınızı qırıb, canavarların kökünü kəssin. Gedin, görün nə istəyir, verin. Elə edin ki, çıxıb meşədən getsin. Yoxsa, canavarlara dinclik olmayacaq.

Başçılarının tapşırığını canavarlar itə çatdırdılar. İt sahibinin sürüsü olan yeri canavarlara nişan verib dedi:

- Əgər istəyirsiniz mən sizi qırıb qurtarmayım, gedin o sürüdən iki qoyun tutub mənimçün gətirin.

Canavarlar üçün bu, su içmək kimi bir şey idi. Odur ki, onlar itin nişan verdiyi tərəfə yüyürdülər. İt də bu biri tərəfdən sürüyə sarı qaçdı. Canavarlar sürüyə yetişincə, ulaşıb dişlərini qıcırtdılar. Çobanın təzə iti qorxusundan qaçıb daşların arasında gizləndi. Çoban isə təkbaşına canavarlarla bacara bilmirdi. Onun çığır - bağırı da əbəs idi.



Canavarlar elə iki qoyun tutmuşdular ki, çobanın qovulmuş iti özünü yetirdi. Möhkəm dişləri ilə canavarları didib didişdirdi. Canavarlar qoyunları buraxıb meşəyə qaçdılar.


Çoban vəfalı itinin canavarlarla necə vuruşduğunu görüb çox sevindi. Boynunu qucaqlayıb başını tumarlamağa başladı. Canavarların qorxusundan qaçıb gizlənmiş cavan itini isə kötəkləyib qovdu. Qoca it isə yenə də sürünün keşiyini çəkməyə başladı.

Bəzəyəni: Bəhlul ABDULLA

MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?

QALAPAQOS ADALARI



Bu adalar Sakit okeanda yerləşən vulkanik adalardır. Ekvator yaxınlığında Ekvador dövlətindən 1000 km qərbdə yerləşir, Ekvador dövlətinə məxsusdur. Bu adanın başqa bir adı isə "Tısbağa adaları"dır. Burada yaşayan nəhəng tısbağalara heç bir yerdə rast gəlmək olmaz. Bu tısbağaların uzunluğu 1,5 metr, ömrü isə 250 ildir. 1831-1836 - cı illərdə burada Çarlz Darvin tədqiqatlar aparmışdır. Güman edilir ki, Darvinin tədqiqatı zamanı gördüyü tısbağalardan hələ də yaşayanları var.

SAHİLSİZ DƏNİZ

Atlantik okeanının şimalında, Şimali Amerikanın şərqində qəribə bir dəniz var ki, onu dünyanın digər dənizlərindən bir çox xüsusiyyətləri fərqləndirir. Ən başlıca xüsusiyyət kimi bu dənizin sahilsiz olması onu coğrafi mövqeyinə görə heç bir qrupa daxil etməyə imkan vermir. Digər qəribəliyi isə onun okeanın mərkəzində yerləşməsinə baxmayaraq, okean səviyyəsindən 70 m aşağıda yerləşməsidir. Lakin bunu okeanda üzərkən hiss etmək olmur. Kosmosdan çəkilən şəkillər və aparılan tədqiqatlar bunu sübut edib. Ilk dəfə Xristofor Kolumbun 1492-ci ildə Atlantik okeanında səyahəti zamanı avropalılara məlum olub və dənizə də Portuqaliya dənizçiləri ad verib.

Şimaldan bu dənizi Şimali Atlantika, qərbdən Qolfstrim, şərqdən Sarıbülbül, cənubdan isə Şimali ekvatorial cərəyanları əhatə edir. Dəniz cərəyanlarla əhatə olunduğu üçün burada saat əqrəbi istiqamətində bir axın yaranıb. Dənizin səthi yosunlarla örtülmüşdür, yosun-ların üzərində sanki giləmeyvələr var; əslində isə bu, giləmeyvə yox su qovuqcuqlarıdır.

Bu dəniz bir müddət gəmilərin qəbiristanı adlanıb, səbəbi yelkənli gəmilərin hərəkətinə yosunların mane olması olub. Burada çox gəmilər qəzaya uğrayıb.

MAYAK VULKAN


Mərkəzi Amerikada olan "İsalko vulkanı" müasir dünyanın ən fəalı vulkanı kimi tanınır. 200 ildən artıqdır ki, bu vulkan dənizçilərə yol göstərir. Onu vulkan-mayak adlandırırlar. Hər 8 dəqiqədən bir yeraltı təkan hiss olunur, sonra krateldən göbələk formalı tüstü çıxır və 300 metrlik alov saçan atəş görünür. Məhz bu alov dənizçilərə yol göstərir.

Mətanət AĞAYEVA
"Dünya" məktəbinin coğrafiya müəlliməsi

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA...

- *Dünyada ingilisdilli adamların ən çoxu ABŞ-da yaşayır.*
- *ABŞ-da ilk milli park, metro və kitabxana Boston şəhərində açılmışdır.*
- *ABŞ-da 30-dan çox regional dialekt mövcuddur.*
- *ABŞ-da dəniz səviyyəsindən ən aşağı yer (38 metr) Ölüm vadisidir.*





OXUCULARIN NƏZƏRİNƏ!

"XƏZƏR XƏBƏR" JURNALINA 2010-cu İL ÜÇÜN ABUNƏ ELANI

Əziz oxucular!

"Xəzər Xəbər" jurnalı yeni ildə sizin görüşünüzə yeni həcmdə və yeni görkəmdə gələcək. Jurnalın dövriliyi də dəyişəcək.

"Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və rəngli çıxacaq.

"Xəzər Xəbər" jurnalında siz yenə Azərbaycan, türk, rus və ingilis dillərində maraqlı xəbərlər, təhsil yenilikləri və tələbə həyatına, mədəniyyət, turizm və idmana aid yazılar, orijinal bədii əsərlər oxuya biləcəksiniz.

"Xəzər Xəbər" jurnalına 2010-cu il üçün aşağıdakı ünvanlarda abunə yazılmaq (illik abunə haqqı 22 manatdır) olar:

- *"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66*
- *1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosu, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40*
- *"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43*

2010-cu ilin yanvar ayından etibarən "Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən ala bilərsiniz.

"Xəzər Xəbər"ə abunə yazılın!
"Xəzər Xəbər"i oxuyun!
"Xəzər Xəbər"ə yazın!

KHAZAR VIEW

XƏZƏR

XƏBƏR